Azərbaycan Respublikası
Ekologiya və Təbii Sərvətlər
Nazirliyi

# Orxus İctimai Ekoloji İnformasiya Mərkəzinin resurslarından istifadə qaydaları

Nazirlik - Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi

## 1. Kitablar və videokassetlər:

Kitablar yalnız kitabxanada və konfrans zalında tədbirlər zamanı təyinatı üzrə istifadə edilməsi üçün nəzərdə tutulmuşdur.

Videokassetlərin baxılmaq üçün vətəndaşlara və ya təşkilatlara verilməsi yalnız sənəd təqdim etməklə 2 iş günü müddətində mümkündür.

## 2. Kompüter, internet və surətçıxarma resursları:

Kompüterlərdən istifadə müddəti 1 nəfər üçün gün ərzində 40 dəqiqəyədəkdir.

Kompüterdən və internet resurslarından ancaq kitabxananın məqsədlərinə uyğun olaraq istifadə etmək olar.

Məlumatları kağız halında A4 formatda 15 səhifə, A3 formatda isə 7 səhifə həcmdə çap etmək və ya surət artırmaq olar.

elektron formada məlumatların həcminə məhdudiyyət qoyulmur.

## 3. Konfrans zaldan istifadə

Konfrans zalından əsasən ətraf mühit və ekoloji maarifləndirici məzmunlu tədbirlərin keçirilməsi üçün istifadə edilir.

Konfrans zalından istifadə ödənişsizdir. Yalnız zalın təmizliyi və ictimai asayişin təmin edilməsi zəruri şərtdir.

Daha ətraflı məlumat üçün mərkəzin menecerinə müraciət etməyiniz xahiş olunur.